# Vətənə sədaqətin rəmzi

**Vətənpərvərlik anlayışı yalnız sözlə ifadə olunan bir hiss deyil. O, insanın ruhunda kök salan, həyat amalına çevrilən müqəddəs bir dəyərdir. Azərbaycan xalqının tarixi boyu yetişdirdiyi milli qəhrəmanlar bu ali duyğunun canlı təcəssümüdür. Onlar üçün vətən torpağı sadəcə coğrafi məkan deyil, namus, şərəf və varlıq səbəbi olub. Çətin və keşməkeşli dövrlərdə xalqın taleyi təhlükə altına düşdükdə, məhz bu igid övladlar önə atılaraq həyatlarını tərəddüdsüz şəkildə Azərbaycan dövlətinin müstəqilliyi və ərazi bütövlüyü uğrunda fəda ediblər. Onların göstərdiyi şücaət, döyüş meydanındakı mərdliyi və sarsılmaz iradəsi milli kimliyimizin formalaşmasında mühüm rol oynayıb, gənc nəsildə vətənə sevgi və bağlılıq hissini daha da gücləndiribdir.**



Milli qəhrəmanlarımızın həyat yolu sadəcə fərdi igidlik nümunəsi deyil, həm də yüksək vətəndaşlıq məsuliyyətinin bariz göstəricisidir. Onlar çətin anlarda qorxuya deyil, inama söykənib, şəxsi mənafelərini deyil, xalqın və dövlətin mənafeyini üstün tutublar. Qəhrəmanlıq anlayışı onların timsalında romantik bir mif deyil, real həyatın sınaqlarından keçərək formalaşmış mənəvi ucalıq zirvəsidir. Şəhidlik zirvəsinə yüksələn igidlərimizin hər biri xalqın yaddaşında əbədi yaşayır. Onların adı məktəblərə, küçələrə verilir, xatirələri hörmətlə yad olunur və həyat hekayələri gələcək nəsillərə örnək kimi təqdim edilir.

Azərbaycan xalqının mübarizə tarixi Vətən uğrunda canından keçən igid oğulların şərəfli ömür yolları ilə zəngindir. XX əsrin sonlarında baş vermiş ictimai-siyasi proseslər və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ölkəmizin müasir hərb tarixində də dönüş nöqtəsi olub. Bu dövrdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə milli qəhrəmanlıq anlayışının yeni məzmun kəsb etməsinə gətirib çıxarıbdır. Bu mübarizənin fəal iştirakçılarından biri də Azərbaycanın Milli Qəhrəmanı Riad Fikrət oğlu Əhmədovdur. Onun həyat və fəaliyyəti Azərbaycan hərb tarixində xüsusi yer tutur.

Riad Fikrət oğlu Əhmədov 1956-cı il dekabrın 20-də Bakı şəhərində anadan olub. Hərbi sahəyə marağı onu Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə gətirib. Həmin məktəbdə təhsil adlığı illərdə intizamı, liderlik keyfiyyətləri və yüksək fiziki hazırlığı ilə seçilib.

O, 1976-1979-cu illərdə Azərbaycan SSR Ədliyyə Nazirliyi yanında Məhkəmə Ekspertizası İnstitutunda laborant işləyib. 1979-1980-ci illərdə həmin nazirliyin Qanun Layihələrinin Hazırlanması və Qanunvericiliyin Sistemləşdirilməsi İdarəsində məsləhətçi, 1980-1981-ci illərdə isə Ədliyyə Nazirliyinin kadrlar şöbəsində baş məsləhətçi vəzifələrində çalışıb. 1981-ci ildə təhlükəsizlik orqanlarında fəaliyyətə başlayan Riad Əhmədov 1981-1982-ci illərdə DTK-nın Minskdəki Ali Məktəbində təhsil alıb. 1984-cü ildə isə DTK-nın Y. V. Andropov adına İnstitutu nəzdindəki kurslarda dinləyici olub.

Riad Əhmədov SSRİ Silahlı Qüvvələri sıralarında xidmət etdiyi illərdə müxtəlif hərbi hissələrdə mühüm vəzifələrdə çalışaraq, zəngin təcrübə toplayıb. Bu dönəm onun gələcək döyüş yolu üçün nəzəri və əməli təcrübə toplamaq mərhələləri olub.

1981-ci ildə təhlükəsizlik orqanlarında fəaliyyətə başlayan R.Əhmədov daha sonra təhsillə bağlı Minskə yollanıb. Azərbaycana qayıtdıqdan sonra - 1992-ci ildə Müdafiə Nazirliyinin Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsinə təyin edilib. O, Şuşa, Goranboy, Füzuli, Əsgəran, Ağdamın müdafiəsi uğrunda mübarizə aparıb. 38 əməliyyatdan uğurla çıxan Riad Əhmədov ermənilərin qorxulu yuxusuna çevrilən komandirlərdən biri kimi tanınıb.



Məlumdur ki, 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz nəticəsində tərəflər arasında qanlı döyüş əməliyyatları başlamışdır. Həmin dövrdə Riad Əhmədov da Vətənin müdafiəsi naminə ön cəbhəyə yollanır. O, xüsusi təyinatlı və kəşfiyyat xarakterli əməliyyatlarda fəal iştirak edir. R.Əhmədovun rəhbərliyi ilə həyata keçirilən əməliyyatlar düşmənin xeyli canlı qüvvə və texnikasının zərərsizləşdirilməsində mühüm rol oynayır. Hərbi-strateji baxımdan onun fəaliyyəti bir sıra lokal döyüşlərdə təşəbbüsün Azərbaycan qüvvələrinin əlinə keçməsinə şərait yaradır.

Riad Əhmədovu respublikada siyasi vəziyyət gərginliyi son həddə çatdığı vaxtlarda Müdafiə Nazirliyinin əks kəşfiyyat idarəsinə dəvət edirlər. Onun döyüş təcrübəsindən, peşəkar kəşfiyyatçı olmasından bəhrələnmək lazım idi. Hələ 1991-ci ildə erməni yaraqlılarının mühüm strateji dayaq məntəqələrindən biri olan Çaykəndin azad olunmasında Riad Əhmədov xüsusilə fərqlənir, misilsiz qəhrəmanlıq göstərir və igidliyinə görə yüksək mükafata layiq görülür. O, Əfqanıstan müharibəsi veteranlarından ibarət döyüşçüləri ətrafına toplayıb hərbi əməliyyatlarda qəhrəmanlıq göstərir.

Riad Fikrət oğlu Əhmədovun 1992-ci il yanvarın 25-də xüsusi tapşırığın icrası zamanı onlarla hərbçimizlə bərabər itkin düşməsi silahdaşlarına çox ağır təsir göstərir, bununla yanaşı onun qəhrəmanlıqları hamı üçün qiymətli örnək olur.

Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədovun döyüş yoldaşı, Daşaltı əməliyyatının iştirakçısı İlyas İsmayılov çıxışlarından birində demişdir: "Riadın Azərbaycan hərb tarixinə adını yazdırdığı döyüş məşhur Daşaltı əməliyyatı olub. Əməliyyat planına görə, Qızılqaya hündürlüyünə qalxaraq oradan Daşaltıdan Sığnağa və Şuşakəndə aparan yol kəsilməli idi".

O, vurğulayırdı ki, Riad döyüş zamanı yaralansa da, bunu büruzə vermir, yaralı vəziyyətdə döyüşə davam edir: "Riad döyüş zamanı yaralanmışdı. Amma o, döyüşdən çıxmağa razı olmadı. Nəticədə Riadın necə şəhid olduğunu görə bilmədik. Onu çağırsaq da, Riaddan səs gəlmədi..."

Riadın atası Fikrət Əhmədov sovet dövründə uzun illər partiya-sovet işlərində çalışmışdı. Kommunist Partiyası Mərkəzi Komitəsində elm və tədris müəssisələri şöbəsinin müdiri olmuşdu. 1988-ci ilə qədər Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışmışdı. Uzun illər yüksək vəzifələrdə işləmiş Fikrət Əhmədovun oğlu döyüş bölgəsinə getməyə də bilərdi. Lakin o, atasının vəzifəsindən və nüfuzundan istifadə etməklə özünə rahat həyat yolu seçmədi. Oturaq işlə kabinetdə məşğul olmağı yox, ön cəbhəyə gedib vətəni qorumağı özünə şərəfli borc bildi.

Uzun illər Riad Əhmədovun dəfn olunduğu məkan naməlum qalmışdır. 2023-cü il sentyabrın 18-də Bakıda keçirilən "İtkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirmək üçün milli və qlobal səylərin artırılması" üzrə beynəlxalq konfransda onun və digər itkin azərbaycanlıların nəşlərinin tapıldığı və müəyyənləşdirildiyi barədə məlumat açıqlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli Fərmanı ilə Riad Fikrət oğlu Əhmədova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Bu ali dövlət mükafatı onun xidmətlərinin rəsmi və hüquqi qiymətləndirilməsi olmaqla yanaşı, milli yaddaşın formalaşmasında da mühüm rol oynayır.

Hal-hazırda Bakı şəhərindəki 203 saylı tam orta məktəb onun adını daşıyır. R.F.Əhmədovun şərəfli döyüş yolunu əks etdirən "İgidnamə" sənədli, "Qayıt, Riad" bədii-sənədli və "İtirdiyimiz qəhrəman" filmləri çəkilmişdir.

Riad Əhmədovun fəaliyyəti yalnız fərdi igidlik nümunəsi deyil, həm də milli qəhrəmanlıq institutunun formalaşmasının mühüm elementidir. Onun vətənpərvərliyi, hərbi andına sədaqəti və şəxsi fədakarlığı müasir Azərbaycan zabitinin ideal modelini özündə təcəssüm etdirir.

Riad Əhmədovun irsi Azərbaycan tarixində qəhrəmanlıq rəmzi kimi yaşayır və milli dövlətçilik ənənələrinin möhkəmlənməsinə xidmət edir. Bu gün müstəqil Azərbaycanın sabahı naminə çalışan hər bir vətəndaş üçün milli qəhrəmanlarımızın irsi həm mənəvi dayaq, həm də məsuliyyət çağırışıdır. Onların bizə miras qoyduğu ən böyük dəyər azadlıq ruhu, dövlətə sədaqət və torpağa bağlılıqdır. Vətənpərvərlik yalnız döyüş meydanında deyil, həm də elm, təhsil, mədəniyyət və ictimai fəaliyyət sahəsində göstərilən sədaqətli xidmətlərlə yaşadılır. Qəhrəmanlarımızın xatirəsi qarşısında borcumuz onların uğrunda can verdiyi Azərbaycanı qorumaq, inkişaf etdirmək və daha güclü gələcəyə daşımaqdır. Çünki Vətən uğrunda canından keçənlərin ruhu yalnız o zaman rahatlıq tapır ki, onların əmanəti olan torpaq və dövlət əbədi yaşasın.



*Nurənə NƏCƏFOVA*
*Azərbaycan Hərb Tarixinin Muzeyinin tədqiqatçı-elmi işçisi*